4.1.8. yerli icra hakimiyyəti başçısının aparatının işçilərini, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində və yanında olan *orqanlarda* inzibati vəzifə tutan işçiləri, habelə tabeliyində olan hüquqi şəxslərin rəhbərlərini və onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad etmək, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görmək, yerli icra hakimiyyəti başçısı aparatının struktur bölmələrinin, inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, yanında olan *orqanların* və tabeliyində olan hüquqi şəxslərin rəhbərlərinin hesabatlarını dinləmək;

4.1.9. bu Əsasnamənin Əlavəsinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdıraraq onların yerli bölmələrinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək və ya onların vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına təqdimat vermək;

4.1.10. yerli icra hakimiyyəti başçısının müavinlərinə (Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavinlərinə ixtisas dərəcəsinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən verildiyi hallar istisna olmaqla), onun aparatında işləyən dövlət qulluqçularına, habelə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin və yanında olan *orqanların* işçilərinə müvafiq ixtisas dərəcələri vermək;

4.1.11. yerli icra hakimiyyəti başçısının aparatının, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, yanında olan *orqanların dövlət qulluqçusu olmayan işçilərinin*, habelə tabeliyində olan hüquqi şəxslərin işçilərinin attestasiyasının keçirilməsini təşkil etmək; [22]

4.1.12. müvafiq ərazidə fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarının fəaliyyəti barədə onlardan məlumat almaq və həmin qurumların fəaliyyətinin təkmilləşdirilməsi üçün aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təkliflər vermək;

4.1.13. inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, yanında olan *orqanların*, habelə tabeliyində olan hüquqi şəxslərin qanunvericiliyə zidd qərarlarını ləğv etmək, mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarının, dövlətə məxsus müəssisələrin və səhmdar cəmiyyətlərinin yerli qurumlarının rəhbərlərinin isə belə qərarlarının ləğv edilməsi barədə müvafiq mərkəzi icra hakimiyyəti orqanları, dövlətə məxsus müəssisələr və səhmdar cəmiyyətləri qarşısında məsələ qaldırmaq;

4.1.14. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən:

4.1.14.1. səfərbərlik orqanları yaratmaq, səfərbərlik hazırlığını və səfərbərliyi təşkil etmək, səfərbərlik hazırlığına və səfərbərliyə dair normativ hüquqi aktların həyata keçirilməsini təşkil etmək;

4.1.14.2. səfərbərlik planlarını işləyib hazırlamaq, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə səfərbərlik

planlarının yerinə yetirilməsini təmin edən tədbirlər həyata keçirmək;

4.1.14.3. səfərbərlik hazırlığının və səfərbərliyin təmin edilməsi məqsədi ilə malların göndərilməsi, işlərin görülməsi, qüvvə və vasitələrin ayrılması, xidmətlər göstərilməsi barədə təşkilatlarla müqavilələr bağlamaq;

4.1.14.4. səfərbərlik elan edildikdə, iqtisadiyyatın müharibə dövrü şəraitinə keçirilməsinə dair tədbirlər görmək;

4.1.14.5. dinc dövrdə və səfərbərlik zamanı Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə və onun yerli *baş idarə,* idarə, şöbə və bölmələrinə səfərbərlik işində kömək göstərmək; [23]

4.1.14.6. səfərbərlik planlarına uyğun olaraq, səfərbərlik üzrə hərbi xidmətə çağırılmalı olan vətəndaşların vaxtında xəbərdar edilməsini və gəlməsini, texnikanın toplanış məntəqələrinə, yaxud hərbi hissələrə göndərilməsini, binaların, tikililərin, kommunikasiyaların, yer sahələrinin, nəqliyyatın və digər maddi vəsaitlərin təyinatı üzrə istifadəyə verilməsini müəyyən olunmuş qaydada təşkil etmək;

4.1.14.7. inzibati ərazi vahidində olan təşkilatlar barədə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə və onun yerli *baş idarə,* idarə, şöbə və bölmələrinə məlumat verilməsini təşkil etmək;

4.1.14.8. səfərbərlik orqanları işçilərinin ixtisasının artırılmasını təşkil etmək;

4.1.15. yerli icra hakimiyyəti orqanının maraqlarının digər dövlət orqanlarında, məhkəmə və yerli özünüidarəetmə orqanlarında təmsil olunmasını təşkil etmək, bu Əsasnamə ilə səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəməyə və digər orqanlara müraciət etmək;

4.1.16. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə yerli icra hakimiyyətinin fəaliyyəti ilə bağlı zəruri sorğular göndərmək, məlumatlar və sənədlər almaq, həmçinin onlara müəyyən olunmuş qaydada məlumatlar vermək;

4.1.17. yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin, yanında olan *orqanların* və tabeliyində olan hüquqi şəxslərin fəaliyyəti barədə hesabatların dərc olunması nəzərdə tutulan kütləvi informasiya vasitələrini müəyyən etmək;

4.1.18. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına seçiciləri qəbul etmək üçün zəruri avadanlıqla təchiz olunmuş otaqlar ayrılmasını təşkil etmək, qəbulun aparılacağı yer və vaxt barədə sakinləri məlumatlandırmaq;

4.1.19. müvafiq ərazidə əhaliyə yerli özünüidarəetmənin bilavasitə həyata keçirilməsində və yerli özünüidarəetmədə əhalinin iştirakına dəstək vermək;

4.1.20. yerli icra hakimiyyəti adından müqavilələri, razılaşmaları, ödəmə sənədlərini, məktubları və digər sənədləri imzalamaq, etibarnamə vermək;

4.1.21. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət satınalmalarını həyata keçirmək;

4.1.22. müvafiq ərazidə beynəlxalq və dövlət bayramlarına, tarixi və digər əlamətdar hadisələrə, habelə anım günlərinə həsr olunmuş tədbirlər təşkil etmək və keçirmək;

4.1.23. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla yerli icra hakimiyyətinin fəxri fərmanını təsis etmək, həmin fərmanla təltifetmə qaydasını müəyyən etmək;

4.1.24. şəhərin, rayonun və ya şəhər rayonunun sosial-iqtisadi, mədəni inkişafında, ictimai həyatında fərqlənən şəxsləri yerli icra hakimiyyətinin fəxri fərmanı ilə təltif etmək, şəhərin, rayonun və ya şəhər rayonunun sosial-iqtisadi, elmi-mədəni və siyasi həyatında fərqlənən şəxslərin təltif edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə vəsatət vermək;

4.1.25. konfranslar, yığıncaqlar, seminarlar və digər tədbirlər keçirmək, sərgilər təşkil etmək;

4.1.26. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.1.27. bayramlar və digər dövlət əhəmiyyətli günlərlə bağlı ərazinin bayramsayağı tərtibatını təşkil etmək;

4.1.28. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq.

**4.2. Ərazinin sosial-iqtisadi inkişafı sahəsində:**

4.2.1. müvafiq ərazinin sosial-iqtisadi inkişafının monitorinqini və qiymətləndirilməsini həyata keçirmək, monitorinqin və qiymətləndirmənin nəticələri barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyinə və digər aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına məlumat vermək;[24]

4.2.2. müvafiq ərazidə sənaye potensialının inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

4.2.3. şəhərin, rayonun və şəhər rayonunun yerli sosial-iqtisadi inkişaf proqramlarının *, o cümlədən müvafiq ərazidə təşkil olunmuş bələdiyyələr cəlb edilməklə kənd yerləri üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli inkişaf planlarının* hazırlanmasını təşkil etmək və onları təsdiq etmək; [25]

4.2.4. müvafiq icra hakimiyyəti orqanları, habelə aidiyyəti təşkilatlar və bələdiyyələr qarşısında ərazinin inkişafına dair məsələlər qaldırmaq, təkliflər vermək;

4.2.5. iqtisadi və sosial inkişaf üçün zəruri olan maliyyə, əmək ehtiyatları, əhalinin gəlirləri və torpaq balanslarının, habelə digər balansların hazırlanmasını təşkil etmək;

4.2.6. şəhərin, rayonun və şəhər rayonunun sosial-iqtisadi və mədəni inkişafını təmin etmək məqsədi ilə ayrılan büdcə və digər maliyyə vəsaitinin sərəncamçısı olmaq, bank hesabları açmaq, büdcə vəsaitindən və digər vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarəti həyata keçirmək;

4.2.7. müvafiq ərazinin kompleks sosial-iqtisadi inkişafında istehsal və sosial infrastrukturun, təbiəti mühafizə tədbirlərinin (obyektlərinin) maliyyələşdirilməsi, tikintisi, təmiri və saxlanılmasında iştirak edən fiziki və hüquqi şəxslərin qarşılıqlı fəaliyyətini əlaqələndirmək;

4.2.8. müvafiq ərazidə hüquqi və fiziki şəxslər tərəfindən sərmayə qoyuluşu üçün şərait yaratmaq;

4.2.9. müvafiq ərazidə sosial və istehsal infrastruktur obyektlərinin tikintisini və təmirini təşkil etmək.

**4.3. Aqrar bölmənin inkişafı sahəsində:**

4.3.1. müvafiq ərazidə aidiyyəti dövlət orqanları ilə birlikdə aqrar bölmənin inkişafına yönəldilmiş investisiya layihələrinin həyata keçirilməsi üçün şərait yaratmaq;

4.3.2. Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi üçün aidiyyəti dövlət orqanları ilə birgə tədbirlər hazırlanmasında və onların həyata keçirilməsində iştirak etmək;

4.3.3. aqrar bölmədə sahibkarlığın inkişafı və yerli istehsalçıların dəstəklənməsi üçün tədbirlər görmək, kənd təsərrüfatı məhsullarının istehsalçıları və emalçıları üçün aqroservis, aqrokimyəvi, zoobaytar və digər xidmətlər göstərilməsinə nəzarəti həyata keçirmək;

4.3.4. kənd ərazilərində infrastrukturun inkişafı ilə bağlı məsələlərin həllində, o cümlədən müvafiq dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək;

4.3.5. müvafiq ərazidə mal-qaranın və başqa heyvanların, balıq və quşların xəstəliklərdən qorunması üçün epizootiya əleyhinə, sanitariya, profilaktik və digər *baytarlıq xidməti və nəzarəti tədbirlərinin* həyata keçirilməsində Azərbaycan Respublikasının *Kənd Təsərrüfatı Nazirliyinə və Qida Təhlükəsizliyi Agentliyinə* kömək göstərmək;[26]

4.3.6. mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq müəssisələrdən, təşkilatlardan, torpaq mülkiyyətçilərindən və istifadəçilərindən əkin sahələri və çoxillik əkmələrin, meşələrin, otlaqların və biçənəklərin, toxum və əkin materiallarının fitosanitar vəziyyəti, habelə ziyanvericilərə, xəstəliklərə və alaq otlarına qarşı mübarizə tədbirləri haqqında məlumatlar almaq, onların aradan qaldırılmasında kömək göstərmək;

4.3.7. müvafiq ərazidə karantin obyekti mənbələri olan bitki zərərvericilərinin, xəstəlik törədicilərinin və alaq bitkilərinin vaxtında aşkar olunması, onların təcrid edilməsi və ləğvi üçün tədbirlərin həyata keçirilməsində aidiyyəti qurumlara kömək göstərmək;

4.3.8. bitki mühafizəsi sahəsində tədbirlərin həyata keçirilməsində, habelə pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin ətraf mühitə təsiri və keyfiyyətini itirmiş, istifadəsi qadağan olunmuş kimyəvi maddələrin zərərsizləşdirilməsi məsələlərində aidiyyəti dövlət qurumlarına kömək göstərmək.

**4.4.0. Büdcə və maliyyə sahələrində:**

4.4.0.1. dövlət büdcəsinin formalaşmasına, zərurət yarandıqda, büdcədə müvafiq dəyişikliklər edilməsinə dair təkliflər vermək, onun icrasını təmin etmək, büdcə gəlirlərinin artması üçün tədbirlər görmək.

**4.5. İstehlak bazarı və sahibkarlığın inkişafı sahələrində:**

4.5.1. müvafiq ərazidə istehlak bazarını təhlil etmək və inkişafını proqnozlaşdırmaq, istehlak bazarının, o cümlədən ticarət, ictimai iaşə və əhaliyə məişət xidmətinin inkişafına dair ünvanlı proqramların hazırlanmasını, həmin proqramların həyata keçirilməsini təşkil etmək;

4.5.2. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən:

4.5.2.1. istehlakçıların şikayətlərinə baxmaq, onların hüquqlarının müdafiəsi üzrə müvafiq məsləhətlər vermək;

4.5.2.2. istehlakçıların hüquqlarını məhdudlaşdıran şərtləri aşkarlamaq məqsədi ilə satıcılarla (istehsalçılarla, icraçılarla) istehlakçılar arasında bağlanan müqavilələri təhlil etmək;

4.5.2.3. istehlakçıların həyatına, sağlamlığına, yaxud əmlakına dəyən ziyan haqqında məlumat toplamaq və onu aidiyyəti üzrə səlahiyyətli orqanlara göndərmək;

4.5.2.4. istehlakçıların mallarda (işlərdə, xidmətlərdə) nöqsanlar, yaxud təhlükəli mallar (işlər, xidmətlər) aşkar etdikləri hallarda bunlar barədə malların (işlərin, xidmətlərin) təhlükəsizliyinə nəzarəti həyata keçirən aidiyyəti dövlət orqanlarına xəbər vermək;

4.5.2.5. istehlakçıların hüquqlarının müdafiəsi məqsədi ilə məhkəmədə iddia qaldırmaq;

4.5.3. müvafiq ərazidə əhali tərəfindən istehlak edilən mal və məhsulların keyfiyyətinə nəzarət işini və saxta məhsulların istehsalı və satışının qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsini təşkil etmək;

4.5.4. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanına Əlavə 2 – "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri"nə əsasən, etil (yeyinti) spirtinin və alkoqollu içkilərin (şərabın, konyakın, arağın və siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən digər alkoqollu içkilərin), habelə tütün məmulatlarının satışına xüsusi razılıq (lisenziya) vermək, etil (yeyinti) spirtinin və alkoqollu içkilərin (şərabın, konyakın, arağın və siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən digər alkoqollu içkilərin), habelə tütün məmulatlarının belə razılıq olmadan satışını aşkar etdikdə, tədbirlər görmək;

4.5.5. malların satışı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə yarmarkaların keçirilməsini təşkil etmək;

4.5.6. kənd təsərrüfatı məhsullarının istehsalçılarına, bağçılıqla, bostançılıqla məşğul olan vətəndaşlara kənd təsərrüfatı məhsullarının satışında kömək göstərilməsi məqsədi ilə tədbirlər həyata keçirmək;

4.5.7. müvafiq ərazidə rəqabətin və bazar iqtisadiyyatının inkişafı üçün şərait yaratmaq, sahibkarlıq subyektlərinin yaradılmasına və fəaliyyət göstərməsinə, əlavə iş yerlərinin yaradılmasına kömək göstərmək;

4.5.8. müvafiq ərazidə *mikro,*kiçik və orta sahibkarlığın inkişafına dəstək vermək;[27]

4.5.9. əhaliyə sosial-mədəni xidmətlərin göstərilməsi sahəsində müvafiq tədbirlər görmək, digər növlərdən olan xidmətlərin inkişafına kömək etmək;

4.5.10. elektrik, içməli su, kanalizasiya, istilik və qaz şəbəkələri və qurğularının fasiləsiz işinin təmin olunmasına nəzarət etmək, bu sahədə təsərrüfat xidmətlərinin fəaliyyətini əlaqələndirmək;

4.5.11. vətəndaşların öz hesabına və müqavilələr əsasında yaşayış məntəqələrinin elektrikləşdirilməsi, qaz və su ilə təchizatı məsələlərini həll etmək, suyun keyfiyyətinə nəzarəti həyata keçirmək, müvafiq ərazidə müəssisə və təşkilatların inşa etdikləri elektrik, su kəməri, kanalizasiya, istilik və qaz şəbəkələri və qurğularının tikintisinə dair rəy vermək, əhalinin yanacaqla təmin olunması üçün tədbirlər görmək;

4.5.12. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən şəhərin, rayonun su təchizatı və kanalizasiya təsərrüfatlarının yerləşdirilməsi və inkişafı üzrə regional sxemləri hazırlamaq və təsdiq etmək, su təchizatı və kanalizasiya müəssisəsinə müəssisənin xidməti zonasının hüdudlarından kənarda fəaliyyətini həyata keçirməsinə səlahiyyət vermək, müəyyən miqdarda yerüstü və yeraltı suyun qəbuluna, tullantı sularının hər hansı yerüstü və yeraltı su hövzələrinə axıdılmasına, həmçinin tullantıların (o cümlədən maye tullantıların) daşınmasına, torpaqda və ya su hövzələrində basdırılmasına, su bəndlərinin, su anbarlarının və digər hidrotexniki qurğuların tikintisinə icazə vermək,

su təchizatı və kanalizasiya obyektlərinin layihələndirilməsinə və tikintisinə razılıq vermək.

**4.6. Əhalinin sosial müdafiəsi və gender bərabərliyi sahələrində:**

4.6.1. vətəndaşlara dövlət tərəfindən sosial yardım göstərilməsi işini təşkil etmək;

4.6.2. müvafiq ərazidə ehtiyacı olan ailə, qadın və uşaqlara sosial yardım göstərilməsi işini təşkil etmək, ailə institutunun möhkəmləndirilməsinə və ailə dəyərlərinin təbliğinə yönəlmiş tədbirlər görmək;

4.6.3. ehtiyacı olan uşaqlara yardım göstərilməsini təşkil etmək;

4.6.4. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, ~~övladlığa götürmənin əsaslandırılması və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəy təqdim etmək,~~ övladlığa götürmə ilə bağlı məsələlərdə aidiyyəti dövlət orqanlarının işinə kömək göstərmək;[28]

4.6.5. yeniyetmələrin nəzarətsizliyinə və baxımsızlığına qarşı profilaktik işlərin görülməsi, çətin həyat vəziyyətinə düşənlərin sosial adaptasiyası və reabilitasiyası, onların qanuni mənafelərinin və hüquqlarının müdafiəsi sahəsində tədbirlər həyata keçirmək;

4.6.6. müharibə və əmək veteranlarının, ahıl vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşdırılması sahəsində tədbirlər görmək;

4.6.7. ehtiyacı olan şəxslərin sosial xidmət müəssisələrində yerləşdirilməsi üçün zəruri tədbirlər görmək; [29]

4.6.8. ailə başçısını itirmiş ailələrin, çoxuşaqlı ailələrin, evdə qulluğa ehtiyacı olan *əlilliyi olan şəxslərin*~~, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların~~, müharibə və əmək veteranlarının, qocaların mənzil və maddi-məişət şəraitinin yaxşılaşdırılmasına kömək göstərmək;[30]

4.6.9. *əlilliyi olan şəxslərin*~~, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların~~ yaşayış səviyyəsinin yaxşılaşdırılması sahəsində tədbirlər görmək, onların bərpa müəssisələrinin fəaliyyətinə və inkişafına, *əlilliyi olan şəxslərin*~~, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların~~ reabilitasiya proqramlarının icrasına və *əlilliyi olan şəxslərin*~~, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların~~ həyat fəaliyyəti üçün əlverişli mühitin yaradılmasına dəstək vermək;[31]

4.6.10. müəyyən yaşayış yeri olmayan vətəndaşlara, cəzaçəkmə müəssisələrindən çıxmış şəxslərə, məcburi köçkünlərə sosial xidmət və sosial dəstək göstərilməsi ilə bağlı tədbirlər həyata keçirmək;

4.6.11. müvafiq ərazidə əhaliyə humanitar yardım göstərilməsi və əhaliyə sosial xidmət göstərən təşkilatlarla birlikdə humanitar yardıma tələbatın müəyyənləşdirilməsi işini təşkil etmək;

4.6.12. sosial yardımlara hüququ olan şəxslərin ilkin uçotunun aparılmasını təşkil etmək;

4.6.13. müvafiq ərazidə sosial qidalanmanın təşkili barədə məlumatların kütləvi informasiya vasitələrində verilməsini təşkil etmək;

4.6.14. müvafiq ərazidə ümumtəhsil və peşə təhsili alan şagirdlərin *və tələbələrin* qidalanmasının təmin edilməsi işini təhsil müəssisələri ilə birlikdə təşkil etmək;[32]

4.6.15. valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş yetkinlik yaşına çatmayan uşaqların *ümumi təyinatlı internat tipli ümumtəhsil* məktəblərinə, *inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinə*, sağlamlıq imkanları məhdud ~~18 yaşınadək~~ uşaqların *xüsusi ümumtəhsil məktəblərinə və internat tipli xüsusi ümumtəhsil məktəblərinə* göndərilməsini təşkil etmək.[33]

**4.7. İnsanların sağlamlığının, ərazinin sanitar-epidemioloji şəraitinin yaxşılaşdırılması və ətraf mühitin qorunması, ekoloji təhlükəsizliyin təmin edilməsi sahələrində:**

4.7.1. əhalinin sağlamlığının qorunması üzrə dövlət proqramlarının müvafiq ərazidə icrasını təşkil etmək;

4.7.2. vətəndaşların sağlamlığının qorunması hüququnun həyata keçirilməsinə kömək göstərmək, qanvermə hərəkatının və sağlam həyat tərzinin təbliği üçün tədbirlər görmək;

4.7.3. müvafiq ərazidə tibb müəssisələri tərəfindən əhaliyə xidmətlərin, o cümlədən təcili tibbi xidmətin göstərilməsini, əhalinin sağlamlıq durumunu və digər göstəriciləri əks etdirən statistik məlumatları təhlil etmək, tibbi xidmətin yaxşılaşdırılması ilə bağlı aidiyyəti dövlət orqanlarına təkliflər vermək;

4.7.4. hər bir qrupun spesifik tələbatları nəzərə alınmaqla, yüksək riskli əhali qrupları arasında immunçatışmazlığı virusu infeksiyası, o cümlədən qazanılmış immunçatışmazlığı sindromu haqqında biliklər əldə etməyə yönəldilmiş profilaktik tədbirlər, təhlükəsiz və məsuliyyətli davranışın aşılanmasına yönəldilmiş maarifləndirici və məlumatlandırıcı proqramlar hazırlamaq və həyata keçirmək, həmin qruplara məlumatlandırma xarakterli materialların təqdim edilməsini təşkil etmək;

4.7.5. müvafiq ərazidə dövlət *tibb* müəssisələri şəbəkəsinin inkişafına dair təklifləri aidiyyəti dövlət orqanlarına təqdim etmək; [34]

4.7.6. müvafiq ərazidə narkomanlığa qarşı profilaktik tədbirlərin həyata keçirilməsinə kömək göstərmək;

4.7.7. "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin 2-ci hissəsinə əsasən, müvafiq ərazidə müəssisələrin, təşkilatların, idarələrin və vətəndaşların kompleks gigiyena tədbirlərini və epidemiya əleyhinə tədbirləri həyata keçirməsi sahəsində fəaliyyətini əlaqələndirmək, əhalinin sanitariya-epidemioloji salamatlığının təmin olunmasına dair yerli proqramlar hazırlamaq və təsdiq etmək, onların yerinə yetirilməsinə nəzarət etmək, habelə bu məsələlərə dair dövlət proqramlarının həyata keçirilməsini təşkil etmək, əhali arasında yoluxucu xəstəlik epidemiyalarının, qeyri-yoluxucu kütləvi xəstəliklərin və zəhərlənmələrin qarşısının alınması və ləğvi istiqamətində operativ tədbirlər təşkil etmək, habelə müvafiq ərazidə karantinin və ya məhdudlaşdırıcı tədbirlərin tətbiqinə və ləğvinə dair qərarlar qəbul etmək;

4.7.8. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 24.7-ci maddəsinə əsasən, heyvanların və əhalinin sağlamlığı üçün təhlükə törədən dövlət baytarlıq nəzarətində olan yüklərin zərərsizləşdirilməsi və ya məhv edilməsi üçün xüsusi yerlər ayırmaq;

4.7.9. şəhərin, rayonun və şəhər rayonunun yerli ekoloji proqramlarının və ətraf mühitin mühafizəsi tədbirlərinin hazırlanmasını təşkil etmək və onları təsdiq etmək, müvafiq ərazidə ekoloji şərait barədə əhalinin məlumatlandırılmasını

təmin etmək;

4.7.10. müvafiq ərazidə ətraf mühitin mühafizəsini təşkil etmək, hüquqi və fiziki şəxslərin hərəkətləri nəticəsində ətraf mühitə vurulan ziyanın qarşısının alınması üçün tədbirlər görmək;

4.7.11. su obyektlərinin istifadəsi və mühafizəsi ilə bağlı tədbirlər görmək.

**4.8. Əmək münasibətləri, əməyin mühafizəsi və əhalinin məşğulluğu sahələrində:**

4.8.1. əməyin mühafizəsi və müəssisələrdə baş vermiş bədbəxt hadisələrin tədqiqi məsələlərində müvafiq nəzarət orqanları, həmkarlar ittifaqları təşkilatları ilə və bu sahədə digər səlahiyyətli qurumlarla qarşılıqlı əlaqədə iş qurmaq, bədbəxt hadisələrin baş verməsi səbəblərini araşdırmaq, onların təkrar baş verməsinin qarşısının alınmasına yönəldilən tədbirlər görmək;

*4.8.2. əhalinin işlə təmin edilməsi və məşğulluq səviyyəsinin artırılması üçün "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görmək.*[35]

**4.9. Şəhər və mənzil-kommunal təsərrüfatı və abadlaşdırma sahələrində:**

4.9.1. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan avtomobil yollarının təmiri və saxlanılması işlərini təşkil etmək, istismara qəbulu barədə aktları təsdiq etmək, ərazidə olan digər avtomobil yollarının təmiri və saxlanılması barədə aidiyyəti qurumlar qarşısında məsələ qaldırmaq və işlərin görülməsinə nəzarəti həyata keçirmək;

4.9.2. müvafiq ərazidə sərnişin axınını öyrənmək və təhlil etmək, yerüstü sərnişin nəqliyyatı vasitələrinin hərəkətinin vətəndaşlar üçün daha əlverişli və təhlükəsiz marşrutları, həmin marşrutlar üzrə nəqliyyat vasitələrinin hərəkət cədvəlləri barədə aidiyyəti dövlət orqanına *(qurumuna)* təkliflər vermək, *Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla,* zəruri olan infrastrukturun yaradılması işini təşkil etmək, həmçinin sərnişin nəqliyyatı vasitələri üçün dayanacaqların yerləşdirilməsi sxemlərini təsdiq etmək və nəzarəti həyata keçirmək;[36]

4.9.3. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı və mənzil istismarı sahəsində fəaliyyət göstərən, məişət tullantılarının yığılması və daşınması, abadlaşdırma, yaşıllaşdırma, təmizlik və işıqlandırma işlərini yerinə yetirən qurumlara (mənzil-kommunal istismarı və mənzil istismarı sahələri də daxil olmaqla) icrası məcburi olan göstərişlər verir;

4.9.4. mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, istifadəsində, idarəçiliyində və ya təsərrüfatında istilik təchizatı mənbələri olan istismar təşkilatları və müəssisələri tərəfindən əhaliyə xidmət edən mühəndis şəbəkəsinin və kommunikasiyaların fasiləsiz işinə, saxlanılmasına və təmirinə nəzarəti həyata keçirmək;

4.9.5. müvafiq ərazidə dövlətə məxsus müəssisələrin və digər təşkilatların mühəndis-enerji komplekslərinin, mənzil fondunun və sosial-mədəni təyinatlı obyektlərin qış mövsümünə hazırlanması işlərini əlaqələndirmək və bu sahədə nəzarəti həyata keçirmək;

4.9.6. tabeliyində olan qazanxanaların müntəzəm olaraq işləməsinə, həmçinin, xüsusi mülkiyyətdə olan yaşayış evləri istisna olmaqla, müvafiq ərazidə olan digər istehlakçıların istilik şəbəkəsinə qoşulmasına kömək göstərmək və işlərin görülməsinə nəzarəti həyata keçirmək;

4.9.7. küçələrin işıqlandırılması sisteminin əsaslı təmiri üzrə ünvanlı proqramlar təsdiq etmək və onların icrasını təşkil etmək;

4.9.8. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada dövlət mənzil fondunun yaşayış sahələrini sosial kirayə müqaviləsi əsasında vətəndaşlara vermək;

4.9.9. yaratdığı müvafiq komissiyanın rəyinə əsasən, dövlət büdcəsi hesabına təmir və yenidənqurma işləri aparılacaq binaları müəyyən etmək;

4.9.10. çoxmənzilli binaların dövlət büdcəsi və digər maliyyə mənbələri hesabına cari və əsaslı təmir olunması məqsədi ilə xüsusi proqramlar hazırlamaq və onların icrasına nəzarəti həyata keçirmək;

4.9.11. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsi barədə qərar qəbul etmək;

4.9.12. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada tikinti norma və qaydalarına riayət etməklə yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılması barədə qərar qəbul etmək;

*4.9.13. müvafiq ərazidə ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri, habelə mərkəzi icra hakimiyyəti orqanlarının idarə etdikləri müvafiq mənzil fondu istisna olmaqla) bütün sahələri dövlət mülkiyyətində olan çoxmənzilli binanın idarə edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mənzil Məcəlləsində nəzərdə tutulmuş qaydada idarəedici təşkilatın müəyyən edilməsi üçün tədbirlər görmək;*[37]

4.9.14. yaşayış məntəqələrində məhəllə ərazilərinin abadlaşdırılması üçün ünvanlı abadlaşdırma proqramlarını və müvafiq ərazilərin kompleks abadlaşdırılması proqramlarını hazırlamaq və həyata keçirmək;

4.9.15. mülkiyyətçilərin üzərinə əlavə vəzifələrin qoyulmaması şərtilə müvafiq ərazidə bina, tikili və qurğuların mülkiyyətçiləri tərəfindən həmin bina, tikili və qurğuların xarici görkəminin abad vəziyyətdə saxlanması ilə bağlı görülən işləri əlaqələndirmək;

4.9.16. tikintisi layihələndirilən obyektlərə bitişik olan ərazilərdə istirahət guşəsinin, uşaq və idman meydançalarının qurulması, minik avtomobillərinin dayanacaq *meydançalarının* təşkili, yaşıllaşdırma işləri, məişət tullantıları üçün konteynerlərin yerləşdirilməsi ilə bağlı görüləcək kompleks abadlaşdırma işlərinin həcmini sifarişçi ilə razılaşdırmaq, həmin işlərin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;[38]

4.9.17. müvafiq ərazidə məişət tullantılarının yığılması üçün konteyner meydançalarının yerləşdirilməsi və yenidən qurulması üzrə ünvanlı proqramları təsdiq etmək və həmin proqramların icrasına nəzarəti həyata keçirmək;

4.9.18. müvafiq ərazidə təmizlik işlərinin aparılmasına mane olan, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq sahibsiz sayılan nəqliyyat vasitələrinin və tikinti-quraşdırma işlərində istifadə edilən qurğu və avadanlıqların ayrılmış yerlərə aparılması haqqında aidiyyəti orqanlar qarşısında məsələ qaldırmaq və icrasına nəzarəti həyata keçirmək;

4.9.19. müvafiq ərazidə mövcud yaşıllıqların uçotunun aparılmasını təşkil etmək, yeni yaşıllıqlara olan tələbatı müəyyənləşdirmək və yaşıllıqların salınmasını təşkil etmək;

4.9.20. müvafiq ərazidə təmizlik, abadlaşdırma və yaşıllaşdırma aylıqlarının və iməciliklərin keçirilməsini təşkil

etmək.

**4.10. Ətraf mühitdən istifadə sahəsində:**

4.10.1. çimərliklərdə sanitariya qaydalarına riayət olunmasına, onların istifadə üçün yararlı vəziyyətdə saxlanmasına nəzarəti həyata keçirmək;

4.10.2. müvafiq ərazidə artezian quyularının saxlanmasına nəzarəti həyata keçirmək.

**4.11. Təmir-tikinti, memarlıq və şəhərsalma sahələrində:**

4.11.1. dövlət idarə və müəssisələrinin binalarının, otaqlarının əsaslı və cari təmirinə nəzarəti həyata keçirmək, həmçinin dövlət idarə və müəssisələrinin binalarının təmiri üzrə proqramların hazırlanmasını təşkil etmək və müvafiq təklifləri aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim etmək;

4.11.2. müvafiq ərazidə dövlət mülkiyyətində olan bina və tikililərin təmiri barədə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları və təşkilatlar qarşısında məsələ qaldırmaq;

4.11.3. dövlət mülkiyyətində olan torpaq ehtiyatlarından səmərəli istifadə üçün tədbirlər görmək;

4.11.4. ətraf ərazilərin çirklənməsi təhlükəsi doğura biləcək tikintilər aparılan meydançaların saxlanılmasına nəzarəti həyata keçirmək;

4.11.5. tikinti işləri başa çatmış ərazilərin həmin işləri aparmış şəxslər tərəfindən abadlaşdırılmasına və yaşıllaşdırılmasına nəzarəti həyata keçirmək;

4.11.6. balansında olan qeyri-yaşayış fondunun əsaslı təmirini təşkil etmək;

4.11.7. məhəllədaxili ərazilərdə və meydanlarda mühəndis qurğularının quraşdırılmasına icazə vermək;

4.11.8. müvafiq ərazidə istehsal və qeyri-istehsal təyinatlı tikililərin, yenidən qurulan obyektlərin, həmçinin mühəndis və nəqliyyat infrastruktur obyektlərinin tikintisinə dair investisiya proqramları layihələri ilə bağlı təkliflər vermək;

4.11.9 dövlət büdcəsindən ayrılan vəsait hesabına sosial və infrastruktur obyektlərinin tikintisi barədə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanına təkliflər vermək;

4.11.10. tikinti layihələrinin, habelə tikilməkdə olan obyektlərin, torpağı, hava və su hövzələrini çirkləndirən müəssisələrin (təşkilatların) işinin ekoloji ekspertizasının keçirilməsini tələb etmək, ekspertizanın nəticələri mənfi olduqda, layihələrin yenidən işlənilməsi, müvafiq obyektlərin tikintisinin dayandırılması ilə bağlı aidiyyəti dövlət orqanları qarşısında məsələ qaldırmaq;

4.11.11. "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 1- ci, 4-cü, 7-ci və 12-ci maddələrinə əsasən aşağıdakıları həyata keçirmək:

4.11.11.1. təsdiq edilmiş memarlıq layihələrini qeydiyyatdan keçirmək;

4.11.11.2. memarlıq obyektinin layihəsini və layihənin texniki və ekoloji ekspertiza qaydalarını memarlıq-planlaşdırma tapşırıqları verən orqanla razılaşdırmaqla təsdiq etmək;

4.11.11.3. qəbul edilmiş memarlıq layihəsinin memarlıq həllinin bütün dəyişikliklərinə razılıq vermək və nəzarət etmək;

4.11.11.4. tikinti üçün sənədlərin tərtibatı və ya memarlıq obyektinin inşası zamanı müəllifin razılığı ilə memarlıq layihəsinə edilən dəyişikliklər memarlıq-planlaşdırma tapşırığının tələblərindən və ilkin razılaşdırma layihəsindən kənara çıxdıqda, bu dəyişiklikləri təsdiq etmək;

4.11.11.5. I və II məsuliyyət səviyyəli binaların memarlıq layihəsi təsdiq edildikdən və qeydiyyatdan keçdikdən sonra tikintiyə icazə sənədi vermək;

4.11.12. müvafiq ərazidə III məsuliyyət səviyyəli binaların tikintisinə icazə vermək;

4.11.13. "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu, 17-ci və 26-cı maddələrinə əsasən təsdiq olunmuş şəhərsalma sənədlərində yeni obyektlərin yerləşdirilməsinə, habelə mövcud tikililərin yenidən planlaşdırılmasına, yenidən qurulmasına, konstruktiv dəyişikliklər aparılmasına razılıq vermək, şəhərsalma sənədlərinin həyata keçirilməsində sifarişçinin, tərtibatçının və podratçının fəaliyyətinə nəzarət etmək, şəhərsalma fəaliyyəti ilə əlaqədar yaranan mübahisələrə baxmaq;

4.11.14. müvafiq ərazidə sosial-məişət, mənzil, suvarma, meliorasiya və s. obyektlərin, həmçinin quraşdırılmış səyyar və əsaslı tikinti olmayan obyektlərin, o cümlədən əsaslı tikinti olmayan xırda pərakəndə ticarət obyektləri və komplekslərinin istismara qəbul edilməsi üzrə komissiyalar yaratmaq və həmin obyektlərin istifadəyə verilməsi haqqında aktları qəbul etmək;

~~4.11.15. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, küçə reklamının yerləşdirilməsinə icazə vermək;~~[39]

4.11.16. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, *müvafiq ərazidə ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyindəki dövlət qoruqlarının əraziləri istisna olmaqla) tarix və mədəniyyət abidələrinin təsdiqlənmiş siyahıdan çıxarılması barədə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə təklif vermək,* subyektlərə tarix və mədəniyyət abidələri yerləşən ərazidə torpaq və ya inşaat işləri görülməsinə icazə vermək və belə icazə verildikdən sonra həmin subyektlərə abidələrin qorunması barədə göstərişlər vermək, yerli əhəmiyyətli abidələrin köçürülməsinə icazə vermək;[40]

4.11.17. yaşayış məntəqələrində küçə və meydanlara ad vermək, onların adlarını dəyişdirmək.

**4.12. Təhsil və mədəniyyət sahələrində:**

4.12.1. müvafiq ərazidə uşaqların təhsilə cəlb edilməsi haqqında məlumatların toplanması və təhlili işini təşkil etmək, təhsildən kənarda qalanların təhsilə cəlb edilməsi üçün tədbirlər həyata keçirmək;

4.12.2. müvafiq ərazidə məktəbəqədər təhsil və məktəbdənkənar tərbiyə-təhsil müəssisələrinin, uşaq evlərinin, uşaq, gənclər və elmi-maarifçilik təşkilatlarının işinə kömək göstərmək;

4.12.3. əhalinin təhsil müəssisələrinə tələbatını müəyyənləşdirmək, təhsilin inkişaf səviyyəsi barədə əhalinin məlumatlandırılması işini təşkil etmək, dövlət təhsil müəssisələri şəbəkəsinin inkişafına dair təklifləri aidiyyəti mərkəzi

icra hakimiyyəti orqanlarına təqdim etmək;

~~4.12.3-1. məktəbəqədər təhsil müəssisələrinin yaradılmasını və inkişafını təşviq edən mexanizmləri həyata keçirmək;~~[41]

4.12.4. müvafiq ərazidə mədəniyyət sahəsinin inkişafının təhlili və proqnozlaşdırılması işini təşkil etmək, müvafiq təklifləri aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim etmək;

4.12.5. müvafiq ərazidə sakinlərin asudə vaxtının təşkili və mədəniyyət təşkilatları tərəfindən xidmətlərin göstərilməsi üçün şərait yaratmaq;

4.12.6. müvafiq ərazidə dövlət mədəniyyət müəssisələrinin inkişafına kömək göstərmək, digər mədəniyyət müəssisələrinin fəaliyyətini dəstəkləmək;

~~4.12.7. mədəni-maarif idarələrinin işini təşkil etmək;~~[42]

4.12.8. müvafiq ərazidə kitabxana xidmətinin təşkilinə nəzarəti həyata keçirmək;

4.12.9. xalq bədii sənətinə dəstək vermək, yerli ənənəvi xalq bədii yaradıcılığının inkişafı üçün şərait yaratmaq;

4.12.10. müvafiq ərazidə əhalinin mədəniyyət müəssisələrinin xidmətləri ilə təmin olunmasına dair təhlillər aparmaq, mədəniyyət xidmətinin səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görmək və müvafiq təklifləri aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına təqdim etmək.

**4.13. Uşaq və gənclər siyasəti, bədən tərbiyəsi, idman və turizmin inkişafı sahələrində:**

4.13.1. müvafiq ərazidə uşaq və gənclərlə işi təşkil etmək;

4.13.2. müvafiq ərazidə uşaq və gənclərin asudə vaxtını təşkil etmək;

4.13.3. müvafiq ərazidə uşaq və gənclərin ictimai birliklərinin fəaliyyətini dəstəkləmək, gənclər təşkilatları tərəfindən yaradıcılıq tədbirlərinin keçirilməsinə kömək göstərmək;

4.13.4. müvafiq ərazidə gənclər və yeniyetmələrin klub və mərkəzləri şəbəkəsinin inkişafı, genişləndirilməsi, onların təmiri və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün tədbirlər həyata keçirmək, işçilərin ixtisaslarının artırılmasına, gənclər və yeniyetmələrin mövcud klub və mərkəzlərində yeni dərnək və kursların təşkilinə şərait yaratmaq;

4.13.5. gənclərin məşğulluğunun təşkili üçün tədbirlər görmək, *əlilliyi olan şəxslərə*~~, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara~~, internat məktəblərin və uşaq evlərinin məzunlarına işə düzəlməkdə kömək göstərmək;[43]

4.13.6. mədəni-kütləvi və idman tədbirləri üçün ayrılmış yerlərdən kənarda həmin tədbirlərin keçirilməsinə dair müraciətlərə baxmaq;

4.13.7. yaşayış yerləri üzrə və kütləvi istirahət yerlərində bədən tərbiyəsi və idmanla məşğul olmaq üçün şərait yaratmaq;

4.13.8. idarəçiliyində olan idman qurğularının və obyektlərinin istifadəsinə nəzarəti həyata keçirmək;

4.13.9. idman yarışları, turnirlər, idman bayramları və digər idman-sağlamlıq tədbirlərini təşkil etmək və həyata keçirmək;

4.13.10. müvafiq ərazidə uşaqlar və gənclər arasında idman-sağlamlıq işlərinin aparılması, gənclərin sağlam həyat tərzinin formalaşdırılması məqsədi ilə onların bədən tərbiyəsi və idman məşqlərinə mütəmadi cəlb edilməsini təşkil etmək;

4.13.11. tətil zamanı uşaqların asudə vaxtının səmərəli təşkili üçün müvafiq ərazidə istirahət və idman-sağlamlıq tədbirlərinin dövlət ümumtəhsil müəssisələri tərəfindən hazırlanıb keçirilməsinə, şəhərətrafı uşaq sağlamlıq obyektlərinin inkişafına, əsaslı təmirinə və saxlanmasına nəzarəti həyata keçirmək;

4.13.12. müvafiq ərazidə idman və uşaq əyləncə meydançalarının tikintisi, əsaslı təmiri və yenidən qurulması, ümumi istifadədə olan stadionların əsaslı təmiri üzrə ünvanlı proqramların hazırlanmasını təşkil etmək və onları təsdiq etmək, bu proqramların icrasına nəzarəti, idman və uşaqlar üçün əyləncə meydançalarının avadanlıqla təchiz olunmasını, həmin avadanlığın təmiri və ona xidmət işini təşkil etmək;

4.13.13. müvafiq ərazidə idmanın müxtəlif istiqamətlərinin inkişafı üzrə tədbirlərin həyata keçirilməsini təşkil etmək, dövlət bədən tərbiyəsi və idman müəssisələrinin, o cümlədən bədən tərbiyəsi, idman və sağlamlıq mərkəzlərinin, həmçinin idman yönümlü digər obyektlərin inkişafı üçün şərait yaratmaq;

4.13.14. sosial-mədəni, idman və bədən tərbiyəsi təyinatlı obyektlər yaratmaq və onların işini təşkil etmək;

4.13.15. gənclərin vətənpərvərlik tərbiyəsinə dair proqramların hazırlanmasını təşkil etmək və həmin proqramları təsdiq etmək, vətəndaşların vətənpərvərlik tərbiyəsinə yönəlmiş tədbirləri həyata keçirmək;

4.13.16. müvafiq ərazidə turizm və istirahət obyektlərinin fəaliyyətinin dəstəklənməsi və inkişafı üçün şərait yaratmaq.

**4.14. Kütləvi informasiya vasitələri, siyasi partiyalar, dini qurumlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyət sahələrində:**

4.14.1. şəhərin, rayonun və şəhər rayonunun inkişaf meyillərinin müəyyənləşdirilməsi işinə qeyri-hökumət təşkilatlarını qarşılıqlı razılaşma əsasında cəlb etmək;

4.14.2. sosial, iqtisadi, ətraf mühitin qorunması məsələlərinə həsr olunmuş toplantılarda və mədəniyyət sahələri üzrə ictimai maraq doğuran məsələlərin müzakirəsində kütləvi informasiya vasitələrinin, siyasi partiyaların, dini qurumların və qeyri-hökumət təşkilatlarının iştirakına şərait yaratmaq;

4.14.3. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinin 2-ci və 3-cü hissələrinə əsasən, dini təyinatlı *ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların* və dini məzmunlu başqa məlumat materiallarının müvafiq ərazidə sərbəst yayılması və satışı üçün ixtisaslaşdırılmış satış məntəqələrinin yaradılması məsələlərinə baxmaq;

4.14.4. dini təyinatlı *ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların* və dini məzmunlu başqa məlumat materiallarının ixtisaslaşdırılmış satış məntəqələrindən kənarda satışının, *dini mərkəz tərəfindən dəvət edilmiş din xadimləri istisna olmaqla,* əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılmasının qarşısının alınması və cavabdeh şəxslərin məsuliyyətə cəlb edilməsi üçün aidiyyəti

orqanlar qarşısında məsələ qaldırmaq.[44]

**4.15. Qanunçuluq, asayişin qorunması, təhlükəsizlik və mülki müdafiə sahələrində:**

4.15.1. müvafiq ərazidə Azərbaycan Respublikasının qanunvericilik aktlarının icrası, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi və həyata keçirilməsi üçün tədbirlər görmək;

4.15.2. "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada toplantıların keçirilməsi ilə əlaqədar məsələlərə baxmaq;

4.15.3. müvafiq ərazidə ictimai və kütləvi tədbirlərin keçirilməsi zamanı daxili işlər orqanları ilə birlikdə ictimai asayişin qorunmasını təşkil etmək;

4.15.4. Azərbaycan Respublikasının ərazisində olma, yaşama, yaxud tranzitlə keçmə qaydalarını müvafiq ərazidə pozan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müəyyən edilməsində aidiyyəti dövlət orqanlarına kömək göstərmək;

~~4.15.5. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 34-cü maddəsinə uyğun olaraq, ictimai işlər növündə cəzanın icra edildiyi ictimai yerləri müəyyənləşdirmək;~~[45]

4.15.6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati xətalar haqqında işlərə baxmaq;

4.15.7. əhalinin və ərazilərin fövqəladə hallardan qorunmasının və mülki müdafiənin təşkili üçün tədbirlər görmək;

4.15.8. müvafiq ərazidə mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq idarə, müəssisə və təşkilatlarda mülki müdafiə, təbii və texnogen xarakterli fövqəladə hallardan müdafiə üzrə tədris-material bazasının yaradılması və inkişafı üçün tədbirlər görmək;

4.15.9. müvafiq ərazidə yol hərəkətinin təhlükəsizliyini təmin edən tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təşkil etmək, işıqfor şəbəkəsinin modernləşdirilməsi və yerləşdirilməsi ilə bağlı aidiyyəti *dövlət orqanlarına (qurumlarına)* təkliflər vermək;[46]

~~*4.15.9-1. dövlət avtomobil yollarında parklanma yerlərinin təşkili ilə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırılmış təkliflər vermək;*~~[47]

4.15.10. müvafiq ərazidə narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadənin və onların qeyri-qanuni dövriyyəsinin qarşısının alınması üçün tədbirlər həyata keçirmək;

4.15.11. müvafiq ərazidə ictimai asayişin qorunması, kriminogen vəziyyət, habelə vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasının təmin olunması haqqında məhkəmə, ədliyyə, prokurorluq və polis orqanlarından məlumatlar almaq;

4.15.12. müvafiq ərazidə hüquqpozmaların profilaktikası üzrə tədbirlər həyata keçirmək;

4.15.13. müvafiq ərazidə ictimai təhlükəsizliyin qorunmasının təmin edilməsi, əhalinin və həyat üçün mühüm obyektlərin təhlükəsizlik səviyyəsinin yüksəldilməsi üçün tədbirlər həyata keçirmək;

4.15.14. müvafiq ərazidə yerləşən mülki müdafiə obyektlərinin daim hazır vəziyyətdə saxlanılması üçün tədbirlər həyata keçirmək.

**4.16. Dövlət əmlakının idarə edilməsi, dövlət torpaq kadastrı və torpaqların monitorinqi sahələrində:**

4.16.1. şəhərin, rayonun və şəhər rayonunun icra hakimiyyəti orqanının istifadəsində olan əmlaka münasibətdə hüquqi hərəkətlər etmək və həmin əmlakın qorunmasını təşkil etmək;

4.16.2. idarəçiliyində olan qeyri-yaşayış fondu obyektlərinin icarəyə verilməsinə razılıq vermək;

4.16.3. müvafiq ərazidə dövlət mülkiyyətində olan torpaqlardan istifadə edilməsini planlaşdırmaq, habelə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirmək və müvafiq tədbirlər görmək;

4.16.4. müvafiq ərazidə dövlət mülkiyyətində olan torpaq sahələrini "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq istifadəyə və icarəyə vermək (rayon bölgüsü olan şəhərlərdə müvafiq rayonun icra hakimiyyətinin rəyi nəzərə alınmaqla);

4.16.5. investisiya şərtləri ilə tikinti aparıla biləcək torpaq sahələrinin siyahısını müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına təqdim etmək;

4.16.6. torpaq və daşınmaz əmlak mülkiyyətçilərinin və istifadəçilərinin hüquqlarının müdafiəsinə kömək göstərmək;

4.16.7. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq məhkəmədənkənar qaydada həll olunmalı torpaq mübahisələrini həll etmək;

4.16.8. müvafiq ərazidə yeni yaradılmış daşınmaz əmlak obyektlərində sosial təyinatlı obyektlərin yerləşdirilməsi üçün müvafiq sahələrin dövlət mülkiyyətinə alınması barədə aidiyyəti icra hakimiyyəti orqanlarına təkliflər vermək;

4.16.9. dövlət mülkiyyətində olan əmlakın bələdiyyə mülkiyyətinə verilməsi, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan əmlakın isə dövlət mülkiyyətinə alınması barədə aidiyyəti dövlət orqanlarına təkliflər vermək.

**4.17. Rayon bölgüsü olan şəhərlərin icra hakimiyyəti başçılarının əlavə səlahiyyətləri:**

4.17.1. şəhərin iqtisadi, sosial inkişaf və ekoloji proqramlarının, bu Əsasnamənin 7.5-ci bəndinin tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının dövlət büdcəsindən ayırmaların layihəsinin və dövlət proqramlarının layihələrinin hazırlanması zamanı şəhər rayonlarının icra hakimiyyəti başçılarından müvafiq təkliflər almaq;

4.17.2. şəhərin vahid inzibati ərazi kimi idarə olunması, ümumşəhər məsələlərinin səmərəli həlli, şəhərin sosial-iqtisadi inkişafı məsələlərinin və səlahiyyətlərinə aid olan digər məsələlərin həllini təmin etmək məqsədi ilə şəhər rayonlarının icra hakimiyyəti başçılarının fəaliyyətini əlaqələndirmək;

4.17.3. şəhər rayonlarının icra hakimiyyəti başçılarının sərəncam və əmrləri Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olduqda onları ləğv etmək.

**4.18. Rayon və şəhər rayonlarının icra hakimiyyəti başçılarına aid edilməyən vəzifə və səlahiyyətlər:**

4.18.1. Bu Əsasnamənin 3.16.3-cü *yarımbəndində* nəzərdə tutulmuş vəzifə rayon və şəhər rayonlarının icra hakimiyyəti başçılarına aid edilmir.[48]

4.18.2. Bu Əsasnamənin 4.5.4-cü, 4.7.8-ci, 4.11.11.5-ci, ~~4.11.15-ci,~~ 4.11.17-ci, ~~*4.12.3-1-ci,*~~ 4.13.6-cı, 4.15.2-ci, 4.16.4-cü

*yarımbəndlərində* nəzərdə tutulmuş səlahiyyətlər şəhər rayonlarının icra hakimiyyəti başçılarına aid edilmir. [49]

**4.19. Yerli icra hakimiyyəti başçıları Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər səlahiyyətləri də həyata keçirirlər.**

## 5. İnzibati ərazi dairələri üzrə və sahə inzibati ərazi dairələri üzrə yerli icra hakimiyyəti başçısı nümayəndələrinin vəzifə və səlahiyyətləri

